

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 fevral 2025-ci il №13 (2922) https://mod.gov.az Qiyməti 30 qəpik


***Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişə, bu gün dünyada baş verən savaşlar güc amilinin əhəmiyyətini bir daha təsdiq edir. Regionda təhlükəsizliyi təmin etmək məqsədilə ordumuzun hərbi qüdrətinin daha da artırılması ölkəmizdə seçilmiş əsas prioritet istiqamətlərdən biridir. Bunun üçün də Azərbaycan Ordusunun döyüş imkanlarının gücləndirilməsi, şəxsi heyətin öz ixtisasının incəliklərinə dərindən yiyələnməsi, maddi-texniki bazanın müasir tələblər çərçivəsində qurulması istiqamətində qarşıya qoyulan bütün tapşırıqlar ordu rəhbərliyinin nəzarəti ilə həyata keçirilməkdədir.***

*Döyüş hazırlığı*

## “Nəzəri biliklərimizi praktiki dərslərlə möhkəmləndiririk”



"N" hərbi hissəsində gördüklərimiz də onu deməyə əsas verir ki, aparılan hərbi quruculuq strategiyası peşəkar ordu modelinin formalaşdırılmasında mühüm rol oynayır. Hərbi hissənin zabiti Xaliq Əliyev bildirdi ki, bu gün şanlı ordumuz xalqımızın, dövlətimizin, azərbaycançılığın məğlubedilməzlik simvolu olaraq birliyimizin, bu birliyin əbədiyyətinin əsas ifadəsidir: "Ordumuz bu gün ərazi bütövlüyümüzü qorumaqla yanaşı, regiondakı təhlükəsizliyin, rifahın əsas müdafiəçisidir. Azərbaycan Ordusu müasir standartlara uyğun qurulmaqla dövrümüzün tələb olunan bütün imkanlarına malikdir. Təbiidir ki, ordunun əsas keyfiyyətləri özünümüdafiə və döyüşaparma qabiliyyəti ilə yanaşı, şəxsi heyətin müasir hərbi avadanlıq, müxtəlif təyinatlı təminat vasitələri ilə təchiz olunmasıdır ki, günümüzdə bu işlər uğurla davam etdirilir. Bölməmizdə də günün nizam qaydalarına uyğun olaraq şəxsi heyətin həm xidməti, həm də gündəlik fəaliyyətini fasiləsiz təşkil etmək üçün arzuolunan şərait yaradılıb".

Məşğələ meydançasında əsgər Əli Abbasovla söhbətimiz əsnasında öyrəndim ki, o, Azərbaycan Memarlıq və İnşaat Universitetinin məzunudur. Atası İlham Abbasov Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. "Keçirilən dərs, məşğələ və təlimlər döyüş hazırlığının bütün parametrlərini özündə ehtiva edərək xüsusi əhəmiyyət daşıyır. Azərbaycan əsgərinin hərbçi kimi formalaşması, bir döyüşçü kimi üzərinə düşən tapşırığın icrası hərbi hazırlıqdan irəli gəlir. Bizə bu vəzifənin icrasında təcrübəli komandirlərimiz köməklik göstərirlər. Onlar yiyələndiyimiz ixtisasın həm nəzəri, həm də praktiki incəliklərini bizə öyrədir, xidməti və xidmətdənkənar qayğılarımızla maraqlanır və həlli istiqamətində əllərindən gələni əsirgəmirlər.

(Ardı 2-ci səhifədə)



“Qalib Azərbaycan Ordusunun əsgəri adına layiq olmağa çalışacağıq”

3-cü səhifədə



Əbədi oxunan dastanlardan biri

4-cü səhifədə



“Bu peşəni seçdiyimə görə özümü xoşbəxt hiss edirəm”

5-ci səhifədə



“Qürurluyam ki, Azərbaycan Ordusunda xidmət edirəm”

6-cı səhifədə




## **ANAMA:** Ötən həftə 935,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevralın 10-dan 16-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 122, tank əleyhinə 51 mina və 306 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 935,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Azərbaycan silahları “IDEX-2025” sərgisində nümayiş olunur

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtında dəniz müdafiəsi və dəniz təhlükəsizliyi sərgisi ilə yanaşı, beynəlxalq müdafiə sərgisi keçirilir. Fevralın 17-dən "IDEX-2025" Beynəlxalq Müdafiə Sərgisi işinə başlayıb.

Tədbirdə beynəlxalq sülh və təhlükəsizliyin təşviqinə yönəlmiş ən son müdafiə texnologiyaları və həllərini nümayiş etdirmək üçün 65 ölkədən 1565 müdafiə şirkəti iştirak edir. Builki sərginin sahəsi daha da genişlənərək, daha yeddi yeni ölkə və 731 yeni şirkət cəlb olunub.

BƏƏ rəhbərliyi bildirib ki, sərgi qlobal təhlükəsizlikdə irəliləyişə nail olmaq üçün dünya üzrə yüksəksəviyyəli müəssisələri və ekspertləri cəlb edən qlobal müdafiə sənayesi üçün mühüm platformaya çevrilib.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edir. Səfər çərçivəsində nazir V.Mustafayev bir neçə ölkənin dövlət rəsmiləri və iri şirkətlərin rəhbərləri ilə görüşlər keçirir. Eyni zamanda, MSN-in tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC ilə xarici şirkətlər arasında hərbi-texniki əməkdaşlığın genişləndirilməsi üzrə sənədlərin imzalanması da nəzərdə tutulur.

Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin stendində Azərbaycanın istehsal etdiyi atıcı silahlar, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, optik nişangah və cihazlar, pilotsuz uçuş aparatları və s. daxil olmaqla 100-ə yaxın müdafiə təyinatlı məmulat nümayiş etdirilir.

"IDEX-2025" Beynəlxalq Müdafiə Sərgisində 132 000-dən çox ziyarətçinin iştirakı gözlənilir.

Fevralın 21-dək davam edəcək tədbirdə sərgi ilə yanaşı, kibertəhlükəsizlik, kosmik təhlükəsizlik, süni intellekt və müasir müdafiə kimi əsas mövzularda konfransların keçirilməsi planlaşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**






# Bakıda NATO-nun mobil təlim qrupunun kursu keçirilir

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2025-ci il üçün "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, Niderland Krallığının Brunssum şəhərində yerləşən Müştərək Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən Bakıda "Hərbi əməliyyatların hüquqi aspektləri" mövzusunda kurs keçirilir.*






Müdafiə Nazirliyi xəbər verir ki, tədbirin açılışında çıxış edən Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi ədliyyə general-mayoru Elçin Əliyev Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində bu cür tədbirlərin əhəmiyyətindən danışaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun son illər ərzində apardığı əməliyyatlar zamanı beynəlxalq hüququn bütün norma və prinsiplərinin qorunduğunu xüsusi qeyd edib.

General-mayor E.Əliyev müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinə Beynəlxalq Humanitar Hüququn (Silahlı Münaqişələr Hüququn) müddəalarının çatdırılması və əməl edilməsinə nəzarətin qarşıda duran prioritet vəzifələrdən biri olduğunu vurğulayıb.

Qeyd edək ki, NATO-nun mobil təlim qrupunun təlimatçıları tərəfindən keçirilən kursun əsas məqsədi Silahlı Münaqişələr Hüququnun yaranması və prinsipləri, güc tətbiq etmək üçün hüquqi çərçivə sənədi, sülhə dəstək əməliyyatlarının hüquqi aspektləri, əməliyyatlarda hədəf almanın hüquqi aspektləri, mülki əhalinin müdafiəsi, mədəni sərvətlərin qorunması, rəhbər heyətin məsuliyyəti, NATO missiyalarında qüvvələrin statusu və imtiyazları, həmçinin sülhməramlı əməliyyatlar zamanı beynəlxalq müqavilələr mövzularında təcrübələrin aşılanmasıdır.

Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində təşkil edilən kursda NATO-da beynəlxalq humanitar hüququn normaları və Silahlı Münaqişə Hüququ üzrə nəzəri biliklərin, o cümlədən xidməti fəaliyyətlər zamanı tətbiqi imkanlarının aşılanması ilə bağlı müxtəlif mövzular tədris ediləcək.

Yekunda yerinə yetirilmiş tapşırıqlar və məqsədlərlə bağlı brifinqlər təqdim olunacaq, kursun iştirakçılarına sertifikatlar veriləcək.



## "Haber Global" telekanalı: Azərbaycan və Türkiyə liderləri təxribatlara qarşı uğurlu mübarizə aparırlar

Prezidentlər Rəcəb Tayyib Ərdoğanla İlham Əliyevin birgə səyləri nəticəsində Azərbaycan və Türkiyə arasında münasibətlər yeni səviyyəyə yüksəlib. Qardaşlıq bağları həm masa arxasında, həm də konkret proqram və layihələrdə özünü aydın göstərir ki, bu da Ankara və Bakının rəqiblərinin bütün planlarını məhv edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin "Haber Global" televiziyasının reportajında yer alıb.

Telekanal qeyd edir ki, Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsi bu gün də iki dövlətin sarsılmaz dostluğunu daha yaxşı xarakterizə edir.

"Türkiyə və Azərbaycan müxtəlif dövrlərdə erməni silahlı dəstələrinin fəaliyyəti, Qərbin təxribatları və ictimai fikrin manipulyasiyası kimi bir çox çağırışı dəf edə bilib. Dialoq və prezidentlərin həqiqi qardaş münasibətləri o qədər güclüdür ki, dövlətlərin yolunda istənilən maneəni məhv etmək qüdrətinə malikdir", - deyə "Haber Global" vurğulayıb.

Qeyd olunub ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə olub, iki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci ildə qurulub. "O gündən Ankara ilə Bakı arasında əlaqələr genişlənməyə davam edib. Dövlət rəhbərlərinin şəxsi mövqeləri bu yolda güclü stimul olub", - deyə reportajda bildirilir. Vurğulanır ki, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin bütün tövsiyələrinin həyata keçirilməsində qətiyyətlidir.

Daha sonra deyilir ki, Türkiyə Prezidentinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri çərçivəsində 2021-ci il iyunun 15-də Şuşa bəyannaməsi imzalanıb. Bu, "iki qardaş ölkənin əlaqələrini yeni strateji müttəfiqlik səviyyəsinə qaldırıb və bununla da rəqiblərin planlarını məhv edib".

Telekanal diqqətə çatdırıb ki, Qərbdə bəzi qüvvələr 44 günlük müharibə qazanılan qələbədən sonra Azərbaycan və Türkiyə prezidentlərinin münasibətlərinə xələl gətirməyə çalışır. Lakin, bu təxribatlar ermənipərəst qüvvələrin ortaya atdığı digər uydurmalar kimi uğursuzluğa düçardır.

# "Nəzəri biliklərimizi praktiki dərslərlə möhkəmləndiririk"

**(Əvvəli 1-ci səhifədə)**

Komandirlərimiz istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməyimiz üçün xüsusi hazırlıqlar keçirlər. Məşğələlər nəticəsində biz Vətənin müdafiəsində mətin dayanan əsgər olaraq formalaşırıq".

Əsgər Cümşüd Həsənli də çöl dərsi zamanı öz ixtisasının incəliklərini şəxsi bacarığı ilə sərgiləyən heyət nəfərlərindən biri olaraq növbəti həmsöhbətimiz oldu: "Üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlmək bizim andımızın qayəsi, vətəndaşlıq borcumuzdur. Təcrübəli komandirlərimizin öyrətdiklərini təlim meydançasında uğurla tətbiq edirik. Onlar çətinlik çəkdiyimiz anlarda hər zaman öz dəstəyini göstərir, hər bir heyət üzvü olan yoldaşımızın fərdi bacarıqlarının da formalaşması və inkişafı üçün bizə dəstək olurlar. Göstərilən diqqət və qayğı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə icrasında ən vacib stimulverici amillərdən biridir. Üzərimizə düşən əsas vəzifələrdən biri də hərbi intizamımızı artırmaqla, öz bilik və bacarıqlarımızı təkmilləşdirməkdir".



"Dərslərimiz əvvəlcədən təsdiq olunmuş planına əsasən təşkil olunur", - deyən əsgər Elmir Sadıqov söhbətə qoşuldu. - Nəzəri dərslərimiz sinif otaqlarında, praktiki dərslərimiz isə açıq ərazidə keçirilir. Artilleriya ixtisasında zəncirvarilik prinsipi çox vacibdir. Ona görə də hər birimiz bir top heyətinin üzvü olmaqla, tuşlayıcı, hesablayıcı, doldurucu və digər vəzifələrin də xırdalıqlarını öyrənməliyik. Sadalananlarla yanaşı, fiziki hazırlıq da mühüm əhəmiyyət kəsb edən amillərdəndir ki, komandirlərimiz bu məsələni də nəzarətdə saxlayırlar. Onların rəhbərliyi altında öz hərbi biliklərimizi artırır, Mehmandarov, Şıxlinski, Aznaurov, Ramazanov və yüzlərlə təcrübəli artilleriyaçı həmyerlilərimizin açdığı cığırda bu gün mətin addımlarla irəliləyirik. Biz həm də nəzəri biliklərimizi təcrübə ilə möhkəmləndiririk".

Öz döyüş hazırlığını praktiki fəaliyyətində də təsdiq etməyi bacarmış əsgərlərdən biri də Aydın Qurbanlıdır. "Vətənə, xalqa sədaqətlə xidmət etməyin verdiyi qürur sözlərə sığmaz, heç nə ilə müqayisə olunmaz. Bu gün biz müqəddəs yolun yolçusuyuq. Azərbaycan əsgərinin gücü bütün dünyaya məlumdur. Qalib ölkənin qalib ordusunun nümayəndəsi olmaq bizim üçün fəxrdir. Bu qalibiyyəti əbədi etmək üçün döyüş hazırlığımız ilə yanaşı, mənəvi-psixoloji hazırlığımızı da nəzarətdə saxlayırıq. Bölməmiz komandirlərimizin dediyi kimi, fiziki cəhətdən möhkəm, mənən zəngin, hərbi hazırlığı yüksək, xalqına sadiq əsgərlərdən ibarətdir. Hər birimiz Vətən sevgisi ilə qidalanırıq. Torpaqlarımız uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin hünəri, cəsarəti bizə əvəzolunmaz örnəkdir", - deyən əsgər Qurbanlı fikrini tamamladı.

Deyilən fikirlər məni ağuşuna aldı. Bir anlıq əsgərlərin dediklərini ilə öz fikrimdəkiləri müqayisə etdim. Ruhumda bir fikir öz təsdiqini tapdı: bu günə qədər ərazi bütövlüyümüz, torpaqlarımız uğrunda döyüşən qəhrəmanlarımız sübut ediblər ki, yüksək döyüş hazırlığının təməlində Vətən sevgisi, yurd təəssübkeşliyi dayanır. Sadalananlar da, öz Vətəninə bağlı olmaq da qandan, gendən gələn amillərdir. Vətən sevgisinin Ana sevgisi qədər müqəddəs olduğu bizə bəllidir. Çünki hər bir körpəmizə Vətən sevgisi Ana laylası ilə aşılanır. Azərbaycan əsgərinin döyüş hazırlığı da Vətən sevgisindən qaynaqlanır və Vətən sevgisi yüksək döyüş hazırlığının mənbəyidir.

**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**





# “Qalib Azərbaycan Ordusunun əsgəri adına layiq olmağa çalışacağıq”



2025-ci ilin hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi.

Əvvəlcə hərbi orkestrin müşayiəti ilə döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Gənc əsgərlər təntənəli surətdə Hərbi And içərək ana Vətənimizə sadiq olacaqlarına söz verdilər.

Mərasimdə çıxış edən general-mayor Vasif Kazımov gənc əsgərləri Hərbi Andı qəbul etmələri, qalib Azərbaycan Ordusunun sıralarına daxil olmaları münasibətilə Müdafiə Nazirliyinin və Quru Qoşunları Komandanlığının rəhbərliyi adından təbrik etdi, Vətənimizin müdafiəsində ayıq-sayıq olmağı, qarşıya qoyulmuş tapşırıqları vicdanla yerinə yetirməyi tövsiyə etdi: "Siz Hərbi Andı qəbul edərək müqəddəs və şərəfli bir vəzifənin - respublikamızın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün göz bəbəyi kimi qorunması vəzifəsinin icrasına başlamaqla bərabər Azərbaycan Ordusunun tamhüquqlu hərbi qulluqçusu olursunuz.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu ordu quruculuğu sahəsində də uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımız və ordumuz Vətən müharibəsində düşmən üzərində Qələbə çalaraq tarixi ədaləti bərpa etdi. Bu Zəfərin qazanılmasında şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan şəhidlərimizin fədakarlığı, sağlamlıqlarını itirən silahdaşlarımızın igidliyi, döyüşən hərbi qulluqçularımızın göstərdikləri şəxsi şücaət nümunələri heç vaxt yaddan çıxmayacaqdır. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, qalib bir ölkənin vətəndaşıdır. Hər bir hərbi qulluqçu isə qalib bir ordunun əsgəri olmaqdan böyük qürur hissi duyur".

Sonra baş ədliyyə müşaviri Firad Əliyev çıxış edərək Azərbaycan Respublikası Baş Prokurorluğu və Hərbi Prokurorluğun rəhbərliyi adından gənc əsgərləri təbrik etdi, xidmətlərini hərbi nizamnamələrin tələblərinə uyğun quracaqlarına əmin olduğunu bildirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli diqqət və qayğısı sayəsində hərbi qulluqçularımızın xidmət və sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların qayğılarının həlli istiqamətində mühüm addımlar atıldığını qeyd edən F.Əliyev bu istiqamətdə həyata keçirilən tədbirlərin bu gün də uğurla davam etdirildiyini vurğuladı.

Gənc əsgərlər adından çıxış edən Riad Muxtarov Vətənə, dövlətə, Ali Baş Komandana və Hərbi Anda sadiq olacaqlarına, nümunəvi, intizamlı xidmət edəcəklərinə, silah və texnikanın sirlərini dərindən öyrənəcəklərinə, döyüş qabiliyyətlərini daim artıracaqlarına, komandirlərin heyətinin əmrlərini dəqiq və vaxtında yerinə yetirəcəklərinə söz verdi.

Daha sonra hərbi qulluqçular təntənəli marşla tribunanın önündən keçdilər.

Andiçmə mərasimindən sonra Hərbi Andı qəbul edən gənc əsgərlərlə həmsöhbət olaraq onların fikirlərini qələmə almaq imkanı qazandım.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**





**Əsgər Riad Muxtarov:** "Əsgəri xidmətə gəldikdən sonra Ali Baş Komandanımızın Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğını əyani şəkildə gördük. Təmiz və rahat şəraitdə xidmət edirik. Bütün növ təminatla da təmin olunmuşuq. Komandirlərimizin doğma münasibəti, qidalanmamız, bir sözlə, hər şey yüksək səviyyədədir. Bizə belə şəraitdə xidmət edən əsgər olaraq yalnız bir şey qalır - Vətən qarşısında olan övladlıq borcumuzu layiqincə yerinə yetirmək. Ana Vətənimizin azadlığı, ərazi bütövlüyü və suverenliyi yolunda şəhid olmuş qəhrəmanlarımızın qanı ilə yazılmış Hərbi Andı qəbul edərək Azərbaycana və onun xalqına sadiq olacağımıza söz verdik. Xalqımızı əmin edirik ki, biz - gənc əsgərlər Vətən müharibəsində qəhrəmanlıq göstərmiş oğullarımızın şanlı döyüş yolunu şərəflə davam etdirəcək, Aprel döyüşləri, Günnüt əməliyyatı və Vətən müharibəsindəki zəfərlər zamanı Azərbaycan Ordusunun düşmən üzərində əldə etdiyi qələbəni qoruyub saxlamaq üçün hər an əlimizdə silah Vətənimizin keşiyində dayanacağıq".



**Əsgər Zeynal Əsədov:** “Hər zaman hərbi mundir geyinməyi, Vətənim Azərbaycana layiqli övlad olmağı arzulayırdım. Zaman yetişdi, mən də əsgəri xidmətə yollandım. Bu gün mənim üçün xüsusi bir gündür. Artıq qalib Azərbaycan Ordusunun hərbi qulluqçusuyam. Bu müqəddəs yolda ölkəmizin müdafiəsi və təhlükəsizliyi üçün əlimdən gələni əsirgəməyəcək, nümunəvi xidmət edəcək, ailəmin yanına başıuca qayıdacağam. Xidmət müddətimdə mənə təhkim olunmuş silah və texnikanın sirlərini dərindən öyrənəcək, komandirlərimin verdiyi tapşırıqları dəqiq və vaxtında yerinə yetirərək qalib Azərbaycan Ordusunun əsgəri adına layiq olmağa çalışacağam".

**Əsgər Məhəmməd Hacıməmmədov:** “Hər bir insanın həyatında unudulmaz günlər olur. Bu gün Hərbi Andı qəbul etməyim, həyatımda unudulmaz gün kimi tarixləşəcək. Bu tarixi heç vaxt unutmayacağam. Sevincli və həyəcanlıyam, bunu sözlərlə ifadə etməyim çətindir. Bizi bundan sonra daha məsuliyyətli bir xidmət gözləyir. Bütün əsgər yoldaşlarıma bu şərəfli yolda uğurlar arzulayıram. Xalqımızı əmin edirəm ki, sələflərimizin yolunu uğurla davam etdirəcək, doğma Vətənimizin ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyacağıq".



**Əsgər Nihat Qocayev:** "Yeniyetməliyim İkinci Qarabağ müharibəsinə təsadüf etdi. Hələ şagird olsam da, müharibənin nə olduğunu yaxşı bilirdim. Döyüşlərdə şəhid olanların dəfnində də iştirak edirdim. Təəssüflənirdim ki, məktəbliyəm, döyüşlərə gedə bilmirəm. Onda valideynlərim deyirdilər ki, zamanı gələndə sən də xidmətə gedəcək, Vətənə övladlıq borcunu yerinə yetirəcəksən. Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş qalib bir ordunun sıralarında olduğum üçün qürurluyam. Əsgər yoldaşlarım kimi, mən də hərbi bilikləri mükəmməl öyrənəcəm, təlimlərdə məsuliyyətlə iştirak edərək hərbin sirlərinə dərindən yiyələnəcəyəm. Bu gün Hərbi And içərək hər kəsi bir daha əmin edtik ki, Azərbaycan Ordusunun bütün şəxsi heyəti kimi, biz də doğma Vətənimizə xidmət edəcək, torpaqlarımızı işğaldan azad edən igid hərbçilərimizin döyüş yolunu davam etdirəcək, məsuliyyətli, sədaqətli, nümunəvi xidmətimizlə bizə verilən tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışacağıq".





**Əsgər Kənan Yəhyayev:** "Sonuncu sinifdə oxuyanda hərbi xidmətdən tərxis olunmuş qonşularımızla, iki-üç il əvvəl bizim məktəbin şagirdi olmuş gənclərlə söhbətləşəndə həmişə hərbi xidmətdən danışardıq. Bu söhbətlər mənim hərbi xidmət haqqında bildiklərimi genişləndirirdi. Çağırışçı kimi hərbi xidmətə həm də bu söhbətlərdən aldığım təəssüratlarla formalaşırdım.

Hərbi xidmət dövründə bəzi müsbət keyfiyyətlərin aşılandığı, formalaşdığı, o cümlədən xidmət dövründə qazanılan əsgər dostluğu haqqında eşitmişdim. Qısa müddət burada olduğuma baxmayaraq çoxlu dost qazanmışam. Əminəm ki, qazandığım dostluq əbədi olacaq. Xidmətimizi başa vurduqdan sonra da görüşəcəyik. Bu gün əsgər yoldaşlarımla birlikdə Hərbi And içdik. Valideynlərimizi, bizi əsgər kimi formalaşdıran komandirlərimizi əmin etdik ki, nümunəvi xidmət edəcəyik. İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanmış hərbi qulluqçularımızı da əmin edirəm ki, Vətəni onlar kimi sevib qoruyacağıq".



**Əsgər Orxan Qarayev:** "Hərbi Andı qəbul etmək, Azərbaycan Ordusunun sıralarına daxil olmaq mənim üçün böyük şərəfdir. Andımızda da dediyimiz kimi, hər zaman Vətənim Azərbaycana və xalqımıza sadiq olacağam. Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü canımı və qanımı əsirgəməyəcəyəm. Xidmət müddətimdə bizə yaradılan imkanlardan maksimum istifadə edəcək, xalqımızın bizə olan etimadını hər zaman doğrultmağa çalışacağam".

*Vətən Müharibəsi Qəhrəmanlarımız*

# Əbədi oxunan dastanlardan biri

İllərlə xilaskar ər oğullarının həsrətlə yolunu gözləyən əsir, viranə yurd yerlərimizin azadlığına qovuşmasından 5 ilə yaxın vaxt ötməkdədir. Bu il xalqımız Böyük Zəfərin beşinci ildönümünü təntənə ilə qeyd edəcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan 44 günlük Vətən müharibəsi rəşadətli Azərbaycan Ordusunun Böyük Qələbəsi ilə başa çatdı. Əlbəttə ki, qəhrəman Vətən övladları bu dönməz, şərəfli mübarizədə canı, qanı bahasına ərazi bütövlüyümüz uğrunda odlardan, alovlardan keçərək, igidlikləri ilə şanlı hərb tariximizə yeni-yeni səhifələr yazdılar. Onlar yüksək dözüm, hərbi güc, birlik, əzm, eləcə də böyük fədakarlıq nümunələri göstərərək, ordumuzun yenilməz qüdrətini nümayiş etdirdilər.

Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda şəhid olan oğullarımızın xatirələri həmişə qəlbimizdə yaşayacaq. Onların hər biri haqqında nə qədər yazılsa belə yenə də azdır. Çünki bu oğullar 1988-ci ildən bəri işğala məruz qalan yurd yerlərimizi azad etməyi bacardılar. Bu qələbə həm də Azərbaycan gəncliyinin bizə böyük hədiyyəsi oldu. Dünənə qədər hələ də yaxınlarının gözündə sadə, təvazökar, məsum olan oğullar sonradan elə tarix yazdılar ki, onların qəhrəmanlığı dillərdə dastan oldu. Əbədi oxunan dastanlar... Onlar erməni sədlərini yerlə-yeksan etməklə yanaşı, xain düşmənlərimizi diz çökdürdülər. 44 günlük Vətən müharibəsində Azərbaycan Ermənistan üzərində parlaq qələbə qazanaraq, dünyaya şanlı Zəfərin sorağını çatdırdı. Rəşadətli ordumuz işğaldakı tarixi torpaqlarımızı yağılardan təmizlədi. Ordumuzun şəxsi heyəti müharibədə igidliklə döyüşdü. Onlar ağır günlərdən başıuca, alnıaçıq çıxdılar, düşmənin torpaqlarımızdan təmizlənməsində müstəsna xidmətlər göstərdilər, yaralandılar, canlarından keçdilər. Böyük savaşdan dönmədilər, əzmlə, cəsarətlə Zəfər yürüşünü sona qədər davam etdirdilər. Ali Baş Komandan çıxışında deyirdi: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən



bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq…".

Bəli, Vətən, torpaq üçün canından, qanından keçən oğullarımızdan biri də Sübhan Cəbrayılov idi. Vətənpərvər döyüşçü İkinci Qarabağ müharibəsinin əfsanəvi qəhrəmanlarından biridir. Onun şərəfli və qəhrəmanlıq dolu ömür yolu dastanlara dönüb əbədi oxunacaqdır. Sübhanın Qarabağ torpaqlarında yazdığı qürur tariximiz Böyük Zəfər salnaməsinin səhifələrində yer alacaqdır.

Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Sübhan Cəbrayılov Vətən müharibəsi zamanı düşmənin genişmiqyaslı təxribatlarına qarşı ordumuzun keçirdiyi əks-hücum əməliyyatlarında xüsusi döyüş bacarığı nümayiş etdirərək, ermənilərin illərlə qurduğu dəmir sədlərin darmadağın edilməsində qəhrəmanlıq və fədakarlıq nümunələri göstərdi. O, oktyabrın 19-da Laçın rayonu ərazisindəki strateji əhəmiyyətə malik mövqelər uğrunda döyüşə atıldı. Bu Sübhanın sonuncu döyüşü olur. Sübhan Cəbrayılov düşmənin çoxlu sayda canlı qüvvəsi ilə qarşı-qarşıya gələrək, 7 saatdan artıq davam edən bu qeyri-bərabər döyüşdə, ömrünün ən parlaq çağında, 37 yaşında canını Vətən uğrunda fəda edərək, şəhidlik zirvəsinə ucalır... Elin, obanın qəhrəman, igid oğlu oktyabrın 23-də - doğum günündə Sumqayıt şəhərinin Şəhidlər xiyabanında torpağa tapşırılır. Sübhan Cəbrayılov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb.

Vətən Müharibəsi Qəhrəmanı Sübhan Cəbrayılovun şanlı və şərəfli döyüş yolu Füzulinin, Cəbrayılın, Xocavəndin, Qubadlının azadlığı uğrunda gedən ağır döyüşlərdən keçir. Bu şərəfli, şanlı ömür və döyüş yolu bugünkü gəncliyə, gələcək nəsillərə örnəkdir.

Hələ orta məktəb illərindən yaşıdları arasında seçilən, qeyri-adi bacarıqları ilə fərqlənən Sübhan idman sahəsində peşəkar boksçu kimi tanınırdı. Liderlik bacarığı, təmkinli olması onu hər zaman önə çəkirdi. Hərbin çətin, lakin müqəddəs yollarında Sübhan Cəbrayılov yüksək inamla, əzmlə irəlilədi. Verilən tapşırıqların öhdəsindən bacarıqla, layiqincə gəldi. Zəngin şəxsi keyfiyyətləri ilə komandanlığın, xidmət etdiyi hərbi hissədə hər kəsin hörmətini qazandı. 2016-cı ilin Aprel döyüşlərindən başlayan döyüş uğurları 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda göstərdiyi qəhrəmanlıqlarla sona çatdı.

Vətən müharibəsi şəhidi Sübhan Cəbrayılovun adının əbədiləşdirilməsi istiqamətində böyük işlər görülüb. Doğma yurdu Salyan rayonunda və Sumqayıt şəhərində onun adına küçə var. Salyan rayon 76 nömrəli Peşə Liseyi qəhrəmanımızın adını daşıyır. Sübhan Cəbrayılovun əziz xatirəsi onu sevən insanların, dostlarının, doğmalarının, elinin, obasının yaddaşında əbədi yaşayacaq. Qəhrəmanın adını daşıyan hər bir məkan qürur yerimizdir!

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Şəhid hərbi pilot Əbu Bəkr İsmayılovun xatirəsi yad edilib





İkinci Fəxri xiyabanda Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi pilotu şəhid baş leytenant İsmayılov Əbu Bəkr Vüqar oğlunun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

HHQ-nin bir qrup hərbi qulluqçusunun, şəhidin ailə üzvlərinin, həmçinin ictimaiyyətin nümayəndələri və bir qrup məktəblinin iştirak etdiyi tədbirdə hərbi pilotumuzun məzarı ziyarət olunub, üzərinə gül dəstələri düzülərək xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

Çıxış edən döyüş yoldaşları şəhidimizin xatirəsinin hər zaman xalqımızın yaddaşında yaşayacağını və qürurla anılacağını qətiyyətlə vurğulayıblar.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Əbu Bəkr İsmayılov 2016-cı ilin aprel ayında ordumuz tərəfindən işğalçı Ermənistanın növbəti hərbi təxribatının qarşısının alınması məqsədilə həyata keçirilən əks-həmlə əməliyyatına havadan dəstək verən hərbi helikopterin heyəti qəhrəmancasına həlak olub.

Şəhid pilotumuzun göstərdiyi igidlik və şücaət nümunələri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib, dövlətimizin başçısının müvafiq Sərəncamı ilə İsmayılov Əbu Bəkr Vüqar oğlu "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

**Müdafiə Nazirliyinin materialları əsasında**

# Yaxşı əsgərdir, yaxşı vətəndaş olacaq...

Füzulidə anadan olan atası söhbət düşəndə, uşaqlıq yaddaşında qalanları xatırlayanda kövrəlirdi, "Bir dünyam qaldı Füzulidə..." - deyərdi, ata ocağından iraq düşməyin ağrılarından, göynərtilərindən danışardı, "Füzulidən danışardı, Vətənin nə olduğunu Füzulidə dərk eləmişdik. Füzulidən uzaq düşmək Vətəndən uzaq düşmək olmasa da, qəlbimiz gizildəyirdi, gecələr yuxularımızdaydı Füzuli, gündüzlər xəyallarımızda...". Hərdən kövrəkliklə bir bayatı da deyərdi:

...yurda sarı,
Sözümü yurda sarı.
Ürəyim dərdli-dərdli,
Boylanır yurda sarı...



Bayatı Nurlanın da qəlbini incələrdi. Uşaq çaşqınlığıyla, başaçılmaz duyğularla atasına baxardı. Atasının əli çiyninə enəndə baxışları qoşalaşardı. "Torpaqlarımız işğaldan azad ediləcək. Qayıdacağıq, oğul, biz dədə-baba yurdumuza qayıdacağıq" - atasının səsində çırpınan qəhəri duymasa da, niyyətini dərk eləmişdi.

İkinci Qarabağ müharibəsi başlayanda məktəbliydim. Hamı ruhən döyüşənlərin sırasındaydı. Ordumuzun qələbələri məktəblilərin də sevincini kükrədirdi. Şuşa işğaldan azad ediləndə Nurlan sinif yoldaşlarına "Atamla Füzuliyə gedəcəyimiz günə az qalıb" demişdi...

Tarixi Zəfər qazanıldı...

Nurlan Əlizadə də bu sevinclə, bu sevincin qüruru ilə yeniyetmələşmişdi, çağırışçı yaşına çatmışdı - hərbi xidmətə çağırıldı. O da hərbi xidmətə getdi...

Hərbi xidmətin nə olduğunu eşitmişdi, indi özü eşitdiklərinin icraçısıdı. Sıra və atəş hazırlıqlarını öyrənirdi, salamlaşmağı da komandirlərinə necə məruzə etməyi də. Hərbi bilikləri də həvəslə, məsuliyyətlə mənimsəyirdi. Hərbi And içəndən sonra o vaxtlar atasının dediyi kəlmələri də xatırlamışdı, ürəyi bu gerçəkləşmənin qüruru ilə döyünmüşdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə başlanması onu da vətəndaş kimi çox sevindirmişdi. Sevinmişdi ki, tarixi Zəfər qazananların sırasındadır - quruculuq işlərində tarixi Zəfər qazananlar da var...

Əsgər Nurlan Əlizadə Hərbi Nizamnamələri də öyrənirdi, zabitlərin tapşırıqlarını da məsuliyyətlə yerinə yetirirdi. O da bilirdi ki, tapşırılanları vaxtında və düzgün yerinə yetirən əsgərə yaxşı əsgər deyirlər, Nurlan yaxşı əsgər kimi xidmət edirdi. İndi də belə xidmət edir.

Hərbi xidmətdən sonra da Vətənə layiqincə xidmət etmək niyyətindədir - yaxşı əsgər olduğu kimi, yaxşı da vətəndaş olacaq Nurlan Əlizadə...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# “Bu peşəni seçdiyimə görə özümü xoşbəxt hiss edirəm”

***İnsanı sənətə, peşəyə bağlayan mütləq bir səbəb vardır. O, yiyələndiyi sahənin, seçdiyi peşənin vurğunu olur. Peşə haqqında müfəssəl biliklər qazanmaq artıq sonranın işidir. Hərbi xidmətdə ən məsuliyyətli sahələrdən biri də helikopter bölmələrinin uçuş heyətində komandir olmaqdır. Yeni tədris dövrünün başlanması ilə əlaqədar "N" hərbi hissəsinə gəlişimiz zamanı Vətən Müharibəsi Qəhrəmanı polkovnik Rəşad Nadirovla helikopter bölmələrinin uçuş heyətləri ilə bağlı söhbətləşdik. Zabit bildirdi ki, bölmənin hər bir heyət üzvü yetərincə təcrübəli və döyüş tapşırığını yerinə yetirmək gücünə malikdir. Kapitan Türkay Qəni də bacarıqlı, yüksək idarəçilik qabiliyyətinə malik zabitdir.***



Türkay 1991-ci ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Qardaş Türkiyənin hərbi təyyarələrini Bakı səmasında görən Türkay gələcəkdə pilot olmaq arzusuna düşüb. 2009-cu ildə hərbi liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil olub.

Türkayla görüşümüz onun idarə etdiyi döyüş helikopterində oldu. Ucaboy, şux qamətli zabit heyət ilə aviasiya vasitəsini diqqətlə yoxlamadan keçirirdi. Çünki heyət hər uçuşdan əvvəl texnikanın sazlığını nəzərdən keçirməklə, uçuşu tam təhlükəsiz yerinə yetirməyə hazır olduğu barədə qərargaha məlumat verir.



Türkay söhbətimiz zamanı dedi ki, hələ liseydə sonuncu kursda oxuyanda təyyarəçilik məktəbindən nümayəndələr gəlib pilotlar seçirdilər. "Mən də onlara təyyarəçi olmaq arzumu bildirdim. Zabitlərdən biri məni yanına çağırdı, xeyli sual-cavab edəndən sonra adımı yazdı”. Beləliklə, Türkay Ali Hərbi Təyyarəçilik Məktəbinin kursantı oldu. O, təcrübəli pilot olmaq üçün daha yaxşı oxumalı, nəzəri və praktiki biliklərini artırmaqla Azərbaycan Ordusuna töhfə verəcəyini qarşısına məqsəd qoymuşdu.

Zabitimiz ilk uçuşunu təyyarəçilik məktəbinin sonuncu kursunda oxuyanda həyata keçirib. "Helikopteri idarə etməyə tələsirdim. Ancaq təcrübəli pilotlar deyirdilər ki, tələsmə, vaxt gələcək, zaman yetişəcək, sən də helikopterin kabinəsində oturub onu havaya qaldıracaq, təyin olunmuş nöqtəyə uçacaqsan. Bunun üçün bütün incəlikləri mükəmməl öyrənməlisən ki, uçuşları təhlükəsiz həyata keçirə biləsən. Heç vaxt yadımdan çıxmaz, həmin gün imtahan verib uçuşa razılıq aldım. Həyəcanlı idim. Helikopteri havaya qaldırdım. Uçuşum uğurlu alındı. Əvvəlcədən təyin olunmuş vaxtda qalxdığım yerə eniş etdim. Bundan sonra özümü hərbi xidmətdə pilot kimi hiss etməyə başladım. Bu peşəni seçdiyim üçün özümü xoşbəxt hiss edirəm".

Döyüş tapşırığının icrasına gəlincə, zabit Türkay Qəni dedi ki, İkinci Qarabağ müharibəsi başlayanda onlar birbaşa əməliyyatlara cəlb olunmasalar da, hər an döyüşə hazır vəziyyətdə komanda gözləyiblər. İkinci Qarabağ müharibəsi ilə bağlı onun da həyatında yaddaqalan anlar olub. "Müharibənin başlandığı ilk günlər idi. Suqovuşan kəndinin azad edilməsi uğrunda gərgin döyüşlər gedirdi. Düşmən qoşunlarımızın hərəkət edəcəyi istiqamətlərdə bütün yüksəkliklərdə dəmir-betondan bunkerlər düzəltmişdi. Onların canlı qüvvəsi, döyüş texnikaları, sursat və ərzaqları da orada saxlanılırdı. Həmin bunkeri məhv etmək üçün birlik komandirinin rəhbərliyi ilə müşavirə keçirildi. Müşavirədə bütün qoşun növlərindən zabitlər iştirak edirdilər. Mən də helikopter bölmələrinin heyət üzvü kimi cəlb olunmuşdum. Düşmənin əldə saxlamağa çalışdığı yüksəkliyi diqqətlə nəzərdən keçirdim. Helikopterin hədəfi olduğunu tam yəqin etdim. Və təklif etdim ki, həmin yüksəkliyi helikopterlərdən atılan, idarə olunan raket vasitəsilə məhv etmək mümkündür. İrəli sürdüyüm fikrimi əsaslandırdım və dərhal aviasiya vasitəsinə həmin koordinata raket zərbəsinin endirilməsinə göstəriş verildi. Düşmən xeyli itki verdi və ertəsi gün döyüşçülərimiz tərəfindən həmin yüksəklik azad edildi". Həmsöhbətimiz verdiyi təklifin nəticəsinin sevincini bu gün də yaşayır. Zabitin bilikli və peşəkar olmasının üstünlüyü də məhz budur. Türkay zamanında helikopter haqqında, onun məhv edə biləcəyi hədəflər barədə müfəssəl biliklərə yiyələnib. Məqamı çatanda əldə etdiyi həmin biliklər onun köməyinə çatıb.

Uçuş heyətindən zabit Ceyhun Xanıyev də ömrünün yeddi ilini hərbi təhsil almağa sərf edib. Geridə qoyduğu illərə görə təəssüflənmir, əksinə, sevinir ki, arzuladığı peşəni seçib. Heyət üzvü olduğu helikopter haqqında demək olar ki, bütün bilikləri lazımınca öyrənib. Döyüşçü ailəsində böyüdüyü üçün ordu ilə bağlı gərəkli məlumatları hələ kiçik yaşlarında atasından eşidib. Atası Natiq Xanıyev 1992-ci ildə Azərbaycan Ordusu yaranında onun ilk əsgərlərindən olub. Ceyhun dedi ki, atası o zaman Ağdamın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib və ağır yaralanıb. Qarabağ müharibəsi əlilidir. Ceyhun uşaq yaşlarında olanda atası ona keçdiyi döyüş yolundan çox danışıb. Hərbi xidmətə marağı da onda yaranıb. Torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında olduğu müddətdə Ceyhunda düşmənə qarşı qisas hissi oyanıb. O, İkinci Qarabağ müharibəsində uçuş heyətinin zabiti kimi iştirak etmək, Vətən qarşısında öz övladlıq borcunu vermək istəsə də, ehtiyac olmadığından döyüşlərə cəlb olunmayıb.

Ceyhun bildirdi ki, onlar yeni tədris dövrü ərzində heyət üzvü olaraq üzərilərinə düşən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirmək üçün nəzəri və praktiki biliklərini artıracaqlar. "Hazırda ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunsa da, istənilən təxribatın qarşısını vaxtında almağa hazır olmalıyıq. Uçuş heyətlərinin yüksək döyüş hazırlığı düşməni vaxtında aşkar edib, ona havadan ağır zərbələr endirməklə çoxlu itkiyə məruz qoymaqdır. Ciddi itki verən düşmənin isə geri çəkilməkdən başqa yolu qalmır".



Hazırda uçuş heyətləri döyüş hazırlıqlarını artırmaq üçün dərslərə və təlimlərə cəlb olunublar. Zabit Məhəmməd Mənsimli də helikopterin uçuş heyətinin üzvüdür. Məhəmməd Biləsuvar rayonunun İsmətli kəndində anadan olub. Hərbçi ailəsində böyüyüb. Gözünü açandan atasını hərbi geyimdə görən Məhəmmədin zabit peşəsinə marağı artıb. 2013-cü ildə Biləsuvar rayonunda texniki fənlər liseyini bitirib. Orta təhsilini başa vurduqdan sonra o, məktəb yoldaşları kimi müxtəlif ali təhsil ocaqlarına üz tutmayıb. Məhəmməd uşaqlıq arzusunun dalınca gedəcəyini deyib və sənədlərini indiki Heydər Əliyev adına Hərbi İnstituta verib, yüksək balla kursant adını qazanıb. Təyyarəçilik üzrə mühəndis ixtisasına yiyələnib. İlk olaraq yerüstü aviasiya mühəndisi kimi xidmətə başlayıb. Çox keçməyib ki, Məhəmməd ixtisası üzrə bilik və bacarıqlarını artırmaq üçün Milli Aviasiya Akademiyasına daha bir il təhsil almağa göndərilib. Təhsilini uğurla başa vurduqdan sonra uçuş aviasiya mühəndisi təyin olunub.

Zabit Məhəmməd Mənsimli dedi ki, helikopter uçuşdan əvvəl texniki cəhətdən yoxlanılır. Heyət üzvləri aviasiya vasitəsində öz yerlərini tuturlar. Bort mühəndisi helikopter havaya qalxmazdan öncə bir daha onun texniki vəziyyətini nəzərdən keçirir. “Hər şey qaydasındadır. Texnika havaya qalxa bilər”, - deyə bort mühəndisi uçuşa razılıq verir.



Məhəmmədin sözlərinə görə helikopter yerdən qalxandan sonra heyət komandirinin ona verdiyi tapşırıqları icra etməyə başlayır. Uçuşun uğurlu olması üçün heyət üzvlərinin hər biri cavabdehlik daşıyır. Bort mühəndisi aviasiya vasitəsi yerdə və uçuşda olanda onun bütün istismar qaydalarına, reqlament işlərinə nəzarət etməklə heyət komandirinin verdiyi tapşırıqları icra edir.

Uçuş heyəti helikopterin uğurlu uçuşunun təşkili və döyüş tapşırığının müvəffəqiyyətlə icrası üçün mükəmməl bilik və bacarıqlara yiyələniblər ki, qarşıda duran bütün tapşırıqları mükəmməl şəkildə yerinə yetirsinlər.

Çox keçmədi ki, helikopter havaya qalxdı. Mühərrikin gur səsi və pərlərin sürətindən yaranan güclü külək tozanaq qopardı. Bir qədər yuxarı qalxandan sonra sürətlə təyin olunmuş məntəqəyə doğru istiqamət aldı. Bir-iki dəqiqədən sonra helikopter açıq səmada görünməz oldu...

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Ankara NATO-nun regional və qlobal strategiyasına bundan sonra da töhfə verməyə hazırdır

*Ankara NATO-nun regional və qlobal strategiyasının həyata keçirilməsinə bundan sonra da töhfə verməyə hazırdır.*

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin ölkənin Şimali Atlantika Alyansına daxil olmasının 73-cü ildönümünə həsr olunmuş bəyanatında deyilir.

Müdafiə Nazirliyi Ankaranın NATO-ya qəbulu ilə bağlı qərarın 1952-ci il fevralın 18-də verildiyini xatırladıb. Bəyanatda deyilir: "Hərbi-siyasi blokda iştirak etdiyi onilliklər ərzində Türkiyə NATO-nun missiyalarına töhfə verərək bütün öhdəliklərini ciddi şəkildə yerinə yetirib. Montrö Konvensiyasına uyğun olaraq Bosfor və Dardanel boğazlarına nəzarət edən Ankaranın kritik rolu Qara dəniz bölgəsində güc balansının təmin edilməsinə kömək edir". Müdafiə Nazirliyi, həmçinin ölkənin Yaxın Şərqdə, xüsusilə də İraq və Suriyadakı proseslər fonunda artan əhəmiyyətinə diqqət çəkib.

Müdafiə Nazirliyi Türkiyə ordusu və hüquq-mühafizə orqanlarının İŞİD, Əl-Qaidə, PKK-YPG və FETÖ kimi cinayətkar təşkilatların yaraqlılarına qarşı həyata keçirdiyi əməliyyatları xatırladaraq, terroru NATO üçün əsas təhdidlərdən biri adlandırıb.

"Türkiyə ordusu digərləri ilə yanaşı, NATO-nun Kosovo və İraqdakı əməliyyatlarında mühüm rol oynayıb, Alyansın dəniz və quru missiyalarında iştirak edib", - deyə Müdafiə Nazirliyi qeyd edib.

Nazirlik diqqətə çatdırıb ki, 2024-cü ilə qədər Türkiyənin müdafiə xərcləri ölkədə ÜDM-nin təqribən 2,09 faizini təşkil edib ki, bu da Ankaraya NATO-ya üzv 32 ölkədən 23-dən birinə çevrilməyə imkan verib. Beləliklə, qarşıya qoyulan məqsədə nail olunub.

Türkiyə təşkilata bağışlanan ianələrə görə Alyansda səkkizinci, NATO missiyalarında iştirak edən personalın sayına görə isə yeddinci yerdədir. NATO Quru Komandanlığının (LANDCOM) qərargahı İzmirdə yerləşir.

"Ankara öz təcrübəsini və müdafiə sahəsindəki inkişafı müttəfiqləri ilə bölüşməyə davam etməyə hazırdır", - deyə Türkiyə Milli Müdafiə Nazirliyi əmin edib.

# "Gücümüzün əsas mənbəyi haqlı olmağımızdır"

Haqlı olmaq dürüstlüyün əlamətidir. Dürüst insan, dürüst siyasətli dövlət hər zaman həqiqət tərəfdarı olub və belə tanınıb. Azərbaycan belə dövlətdir, dünya dövlətləri onu belə tanıyır. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev dövlətin parçalanmasının qarşısını haqlı siyasi kursu ilə aldı, haqlı siyasi kursu ilə vətəndaş müharibəsinə imkan vermədi, dövlətin iqtisadi qüdrətini haqlı siyasəti ilə yüksəltdi, ... Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanı haqlı siyasi kursu ilə güclü dövlətlər sırasına çıxartdı, Azərbaycan Ordusunu dünyanın ən güclü ordularından biri səviyyəsinə çatdırdı...



Ermənistan elan etmədən başladığı işğalçılıq müharibəsində Azərbaycanın ərazisinin 20 faizini işğal etdi. İşğal da, beynəlxalq təşkilatın sənədinə biganəlik də haqsızlıq idi. Azərbaycan ona qarşı edilmiş bu haqsızlığı haqlı mövqeyi, haqlı siyasi kursu, dünyəvi mövqeyi ilə sındıracaqdı. Torpaqları işğal altında olan Azərbaycanın sülh danışıqları təklifi də işğalçı dövlətin xarici siyasətində dəyişiklik, tərpəniş yaratmırdı, yeni ərazilər işğal etmək niyyəti ilə Azərbaycanın ərazilərinə hücumlar edirdi. Bu hücumların qarşısı alınırdı. İşğalçı dövlət niyyətindən əl çəkmirdi. Ermənistan 2020-ci il sentyabrın 27-də bütün istiqamətlərdən hücuma keçdi. Ordu hissələrimiz bu hücumun da qarşısını aldı. Ali Baş Komandanın əmri ilə əks-hücuma başladı.

Əsgərlər diqqətlə dinləyirdi. Bildiklərini bir də dinləmək marağını ordumuza, ordumuzun döyüşlərinə, döyüşənlərə, şəhidlərimizə, döyüşdə yaralananlara ehtiram bildik. Leytenant Qiyas Alıyev əsgərlərə xitabən dedi ki, müharibə haqqında bildiklərinizi xatırlayın. Orta məktəbdə oxuyanda yaddaşınızda qalanları, müəllimlərinizdən, atanızdan eşitdiklərinizi, televiziyada baxdığınız süjetlərdən yadınızda qalanları xatırlayın...

- Döyüşlərin başladığı ilk günlərdə ordu hissələrimiz düşmənin mühəndis-istehkam sədlərini dağıtdı, ilkin qələbələr qazandı. Həmin gün Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində bəzi strateji yüksəkliklər işğaldan azad edildi.

Əsgər Murad Əliyevin qürurla xatırlatdıqları digər əsgərlərin də yaddaşını tərpədir. Bu, heysiyyətdir, Vətənə sevginin, ordunun gücünə, qüdrətinə inamın təzahürüdür. Əsgər yoldaşının fikrini Elvin Yaradanquliyev davam etdirir:

- Bu qələbə sonrakı döyüşlərin başlanğıcı oldu. Oktyabrın 3-də Tərtərin Suqovuşan, Talış, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzulinin Aşağı Əbdürrəhmanlı kəndləri də işğaldan azad edildi.

O qədər gözəl, o qədər qürurlu anlardır ki! Hər xatırlamanı müharibə tariximiz kimi dinləyirik. Bildiklərimizi məhz burada, asudə vaxtda əsgərlərin əhatəsində bir də eşitməyimiz bizə könül xoşluğu verir.

İkinci Qarabağ müharibəsindən az sonra işğaldan azad edilmiş ərazilərdə ezamiyyətdəydim. Döyüş növbətçiliyindən qayıtmış əsgərlərlə söhbətləşirdik. Əsgərin dedikləri bizi qürurlandırmışdı: "Hər dəfə döyüş növbətçiliyinə gedəndə elə bilirəm ki, 2020-ci il sentyabrın 27-di. Əks-hücuma keçmiş döyüşçülərimizin sırasındayam. Mən də döyüşürəm. Döyüş növbətçiliyindən qayıdanda özümü döyüşdə qalib gəlmiş əsgər hesab edirəm. Bir dəfə söz düşəndə məlum oldu ki, əsgər yoldaşlarımın hamısı belə düşünür. Onda əmin olduq ki, ordumuzun qazandığı tarixi Zəfər tarixdə də yaşadılır, sonrakı illərin əsgərlərinin ruhunda da yaşadılacaq". Bunu xatırlatdım. Əsgərlər özünü görmədikləri həmin əsgərin sözünü doğma bilirlər. Leytenant Qiyas Alıyev Səməd Vurğunun bir beytini yada salır:

Gözüm gözünüzdən<br>
uzaq olsa da,<br>
Könüldən-könülə<br>
yollar görünür...

Deyir ki, bu duyğularla, bu amalla yaşayanların hamısı bir-birinin doğmasıdır.

Ordumuz qələbələr qazana-qazana Böyük Qələbəyə yaxınlaşırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən bir məqamı xatırladır: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Xatırlama beş il əvvəllə bu gün arasında gözəl mənəvi bağlılıq yaradır. Söhbətimiz 2020-ci il noyabrın 8-nin, noyabrın 10-nun, 2023-cü il sentyabrın 20-nin ovqatı ilə davam edir. Bu gün Vətənə xidmət edən əsgərlər Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması ilə nəticələnmiş döyüşləri də qəhrəmanlıq döyüşləri adlandırırlar. Söhbətimizin mahiyyətini xatırlayan zabit qeyd edir ki, Azərbaycan bu döyüşləri aparmaqda da haqlı idi. Məğlub Ermənistanın dağılmış ordusunun qalıqları qeyri-qanuni silahlı dəstələrlə birləşib işğaldan azad edilmiş ərazilərimizdə təxribatlar törədirdi, əsgərlərimizin mövqelərinə həmlələr edirdi, sülhməramlıların nəzarətindən yayınıb ərazilərə minalar basdırırdı. Azərbaycan dövləti işğalçıların tör-töküntülərini təmizləmək üçün antiterror əməliyyatı həyata keçirdi.

Əsgər Ramin Ələkbərov Xankəndidə keçirilən hərbi paradı xatırladır. Komandirinin mətləbinin davamı olaraq bildirir ki, dövlətimiz işğalı sonlandıran qalib dövlət kimi dünyanın əksər dövlətlərinin ehtiramını qazandı. 2023-cü il noyabrın 8-də Xankəndidə keçirilən hərbi parad ədalətin nümayişi kimi tarixləşdi.

Azərbaycan güclü dövlət olaraq sülh danışıqlarından yayınan, regionda mövcud status-kvonu saxlamağa çalışan, yeni ərazilər işğal etmək niyyəti ilə Azərbaycanın ərazilərinə hücumlar edən Ermənistana qarşı ədalətli müharibəyə başladı. 44 gün davam edən bu müharibədə tarixi Zəfər qazandıq. "Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya üçün", - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə dediyi bu fikirləri xatırladıram. Əsgərlər bu fikrin fəlsəfəsini yaxşı dərk ediblərmiş. O paradı izləyəndə eşitdikləri yaddaşlarındaymış. Dövlətə, dövlətçiliyə, Vətənə sevgiyə formalaşan çağırışçıların bu sevgini sədaqətlə yaşadan əsgər olmaları zabitlərə də, bizə də xoş gəlir...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin müxtəlif məzmunlu suallarını əhatəli cavablandırdı. İkinci Qarabağ müharibəsində də xatırlatdı, qazanılan tarixi Zəfəri də, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunması ilə nəticələnən 2023-cü ilin antiterror əməliyyatını da. Bu xatırlatma Azərbaycan Ordusunun qüdrətinə ehtiram kimi dinlənildi. Dövlət başçımız onu da bildirdi ki, "Gücümüzün əsas mənbəyi haqlı olmağımızdır"...

Azərbaycan dürüst dövlətçiliyi ilə haqlıdır, dürüst xarici siyasəti ilə haqlıdır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# "Qürurluyam ki, Azərbaycan Ordusunda xidmət edirəm"



***Vətənin müdafiəsi, ərazi bütövlüyünün qorunması hər bir vətəndaşın borcudur. Mənəvi cəhətləri ilə seçilən igid oğullarımız Vətən, torpaq uğrunda hər zaman canlarından keçməyə hazır olublar. Hər bir hərbçi bu şərəfli yolda Vətənin keşiyində əzmlə dayanır. Bu müqəddəs missiyanı yerinə yetirən əsgərlərimizlə görüşmək üçün yola çıxdıq.***

Səfərdən əvvəl bütün düşüncələrimiz məhz həmin anın gətirəcəyi təəssüratlarla bağlı idi. Qürur və həyəcan hissi ilə hərbi hissənin nəzarət-buraxılış məntəqəsinə yaxınlaşdıq. Burada bizi qarşılayan əsgərlərin intizamı və gözlərindəki mətinlik dərhal diqqətimizi çəkdi. Hər birinin simasında vətənpərvər, öz vəzifəsinin şərəfini daşıyan qürurlu əsgər cizgilərini gördük.

"N" hərbi hissəsində xidmət edən əsgər Ramil Kamilzadə ilə tanış olduq. Onun hər bir sözündə böyük bir cəsarət və vətənpərvərlik vardı. Ramil hərbi xidmətdə olmaqdan qürurlandığını dedi: "Hərbi xidmətə Bakı şəhərindən çağırılmışam. Burada isti yeməklərlə, səliqəli yataqlarla təmin olunmuşuq. Özümü burada doğma hiss edirəm. Əsgər yoldaşlarımızla birlikdə asudə vaxtımızı səmərəli keçiririk. Kitablar, qəzetlər oxuyur, müzakirələr edib, daha dərindən maariflənməyə çalışırıq.

Vətəni qorumaq, vəzifə borcumu layiqincə yerinə yetirmək düşüncəsi həyatımda rəhbər tutduğum ən önəmli prinsipdir. Bu, yalnız hərbi xidmətin deyil, mülki həyatın özünün də ən böyük şərəfidir. Qürurluyam ki, Azərbaycan Ordusunda xidmət edirəm".

Öyrəndim ki, əsgər Ramil Kamilzadə döyüş hazırlığı və fərdi bacarıqları, çoxsaylı təlimlər və kurslarda əldə etdiyi mükəmməl nəticələr sayəsində komandir heyətinin etimadını qazanıb.

Söhbətimiz zamanı bir daha əmin olduq ki, Vətənimiz qəhrəman hərbçilərimizin sayəsində etibarlı qorunur.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# Rus İmperator Ordusunda ilk və yeganə müsəlman general-adyutant **Hüseyn xan Naxçıvanski**



***Hüseyn xan Kəlbəli xan oğlu Naxçıvanski 28 iyun 1863-cü ildə Naxçıvanda anadan olub. O, Kəlbəli xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. Atası Çar ordusunda general-mayor rütbəsində zabit olub. Ona görə də oğlu - 15 yaşlı Hüseyn xanı Peterburqdakı Paj korpusu məktəbinə oxumağa göndərib. 1881-ci ildə oranı əla qiymətlərlə bitirərək, çarın xüsusi süvari qoşununda xidmətə başlayıb.***

1885-ci ilin martından 1886-cı ilin mayına qədər kiçik leytenant Hüseyn xan Naxçıvanski 43-cü Tver Draqun alayına göndərilib, 30 avqust 1887-ci ildə isə ona “leytenant” rütbəsi verilib. 26 iyul 1893-cü ildən 19 avqust 1894-cü ilədək leytenant Hüseyn xan Naxçıvanski təlim qrupu alayını idarə edib. 17 aprel 1894-cü ildə ştabs-rotmistr vəzifəsinə yüksəlib. Sonra müxtəlif vəzifələrdə xidmət edən Hüseyn xan 1898-ci ildə rotmistr təyin edilib. Daha sonra Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmət edən H.Naxçıvanskiyə 1903-cü ildə “polkovnik” rütbəsi verilib. Rusiya-Yaponiya müharibəsində (1904-1905) qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına komandirlik edib. 1906-cı ildə leybqvardiya polkunun komandiri olub, 1907-ci ildə “generel-mayor” rütbəsinə layiq görülüb.

1912-ci ildə Naxçıvanski 1-ci Əlahiddə süvari briqadasının komandiri olub. Birinci Dünya müharibəsində 1-ci və 2-ci Süvari Diviziyalarının komandiri olan H.Naxçıvanski alman cəbhəsinin yarılmasında xüsusilə fərqlənib.

Birinci Dünya müharibəsi cəbhələrində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Hüseyn xan Naxçıvanskiyə tam süvari qoşunu generalı rütbəsi verilib. Sonralar Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilib. 1917-ci ilin fevral inqilabından sonra hərbi xidmətdən uzaqlaşıb.

Görkəmli hərbi xadim göstərdiyi igidliklərə, misilsiz xidmətlərə, döyüşlərdə qazandığı qələbələrə və yüksək sərkərdəlik məharətinə görə Rusiyanın və bir sıra xarici ölkələrin orden, medal və qiymətli hədiyyələrinə layiq görülüb. O, "Müqəddəs Stanislav" ordeninin üç dərəcəsi ilə (1894-1910), "Müqəddəs Anna" ordeninin üç dərəcəsi ilə (1899-1913), "Müqəddəs Vladimir" ordeninin üç dərəcəsi qılınc ilə (1905-1914), "Cəsarətə görə" qızıl silahla (1906), "Müqəddəs Georgi" ordeninin dörd dərəcəsi ilə (1907-1914), Ali Lütf (1909), "Ağ Qartal" ordeni qılıncla (1915), İranın "Aslan və Günəş" ordeni (1890), Bolqarıstanın "Hərbi Fəxri ordeni" (1904), "Döyüş xidmətlərinə görə", "İgidliyə görə" və ikinci dərəcəli "Müqəddəs Aleksandr", İranın almazla bəzədilmiş ikinci və dördüncü dərəcəli "Şire-Xurşid" (1890-1904), zabitlərə məxsus "Rumın ulduzu" (1895), Avstriyanın "Dəmir Xaç" (1897), ordeni, dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla təltif olunub. O, Rusiya ordusunda “general-adyutant” rütbəsinə layiq görülən ilk və yeganə müsəlman idi.

Şərəfli bir nəslin yetirməsi olan Hüseyn xan Naxçıvanski nəinki görkəmli bir sərkərdə, həm də müdrik bir şəxsiyyət idi. İmperiya hakimiyyəti dağıldıqdan sonra Hüseyn xan Naxçıvanski müvəqqəti hökumətə tabe olmaqdan qətiyyətlə imtina edib. Hətta II Nikolay özü şəxsən Hüseyn xan Naxçıvanskiyə müvəqqəti hökumətə tabe olmağı məsləhət görsə də, o, öz əqidəsindən dönməyib. Elə buna görə də H.Naxçıvanski 1919-cu ilin yanvarında bolşeviklər tərəfindən həbs olunub və ağır işgəncələrə məruz qaldıqdan sonra güllələnib.

Tanınmış rus jurnalisti A.Kvitkanın "Zabaykalye kazak zabitinin gündəliyi" əsərində H.Naxçıvaskinin alayının döyüş rəşadətindən bəhs olunub.

Rus yazıçısı A.Soljenitsin "14 avqust" romanında yazıb: "Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn xan Naxçıvanski komandanlıq edirdi".

Professor Rudolf İvanovun Hüseyn xan Naxçıvanski haqqında yazdığı "Əlahəzrətin general-adyutantı" kitabı 2006-cı ildə Moskvada çapdan çıxıb.

**"Azərbaycan Ordusu"**

## Məişət

# “Yaradılan şərait bizi Vətənə layiqli xidmət etməyə daha da ruhlandırır”

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illərdə maddi-texniki bazası daha da gücləndirilən ordumuz dünyanın ən qüdrətli ordularından biri kimi tanınır. Müasir şəraitin yaradılması Azərbaycan dövlətinin öz hərbi qulluqçularına diqqətini aydın şəkildə göstərir. Bütün hərbi hissələrimiz müasir avadanlıqlarla təchiz olunub. Hərbi qulluqçuların sosial-məişət şəraitinin gündən-günə yaxşılaşdırılması onların hərbi xidməti yüksək səviyyədə təşkil etməsinə və aparmasına müsbət təsir göstərir.*



"N" hərbi hissəsində əsgərlər üçün yaradılmış məişət şəraiti ilə tanış olduq. Əsgər yataqxanasına daxil olduğumuzda burada olan təmizlik, səliqə ilə düzəldilmiş yataqlar göz oxşayırdı. İkimərtəbəli müasir çarpayılar, təmiz mələfələr, isti, yun adyallar, hər çarpayıda ayrıca qoyulmuş əl-üz dəsmalları əsgərlərimiz üçün yaradılan yüksək şərait diqqət və qayğıdan xəbər verirdi. Əsgərlər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şahin Hüseynovun nəzarəti ilə yataqxananın səliqə-sahmanı ilə məşğul olurdular.

"Yataqxananın təmizliyinə gündəlik olaraq diqqət yetirilir", - Ş.Hüseynov dedi. "Gördüyünüz kimi, yataqxanamızda hər cür şərait var. İdeoloji otaq, bərbər otağı, ütü otağı və digər otaqlar hərbi qulluqçuların istifadəsindədir. Burada yaradılan şəraiti qoruyub saxlamağa hər birimiz borcluyuq. Yumşaq matraslı çarpayılar, təmiz yataq dəstləri, hamam ləvazimatları yerləşən dolablar, dəsmallar, geniş ekranlı televizor və digər əşyaların hər biri əsgərlərin rahatlığı üçün düşünülüb. Valideynlər əmin ola bilərlər ki, övladları müasir avadanlıqlarla təchiz olunmuş bölmədə xidmət edir, heç nədən korluq çəkmir, daim diqqət və qayğı ilə əhatə olunurlar".

"Xidmətimiz üçün bütün növ təminatla təmin olunmuşuq. Yataqxanamızda rahatlığımız üçün bizə lazımi şərait yaradılıb. Tək yataqxanamız deyil, hərbi hissəmizdə olan bütün inzibati binalar müasir standartlara cavab verir. Burada günün nizam qaydalarına uyğun olaraq idmanla məşğul olur, asudə vaxtlarımızı səmərəli keçiririk. Təyin olunan vaxtlarda yataqxanamızda olan televizorda ölkədə və xaricdə baş verən hadisələri, Ali Baş Komandanımızın çıxışlarını diqqətlə izləyirik.

Gündən-günə güclənən ordumuzda xidmət etmək qürurverici hissdir. Yaradılan şərait, göstərilən diqqət bizi Vətənə layiqli xidmət etməyə daha da ruhlandırır", - deyə əsgər Samir Sadayev bildirdi.

Əsgər yoldaşının fikrinə dəstək olaraq Fərid Mehralıyev də yaradılan şəraitdən məmnunluğunu ifadə etdi: "Güclü və müasir Azərbaycan Ordusunda xidmət etmək sevindirici haldır. Uğurlu xidmət üçün bizə çox gözəl şərait yaradılıb. Yataq yerlərimiz təmiz və səliqəlidir. Hərbi hissənin ərazisində inşa edilən camaşırxanada mütəmadi olaraq yataq dəstlərimizin yuyulması, qurudulması və ütülənməsi prosesi həyata keçirilir. Orada çirkli camaşırlar yuyulduqdan sonra çeşidlənir, hər həftənin sonunda bölmələrə göndərilir. Komandirlərimiz də hər zaman bizə diqqət və qayğı ilə yanaşırlar. Düşünürəm ki, bizim bircə vəzifəmiz var - Vətənin müdafiəsində daim ayıq-sayıq dayanmaq. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün digər əsgər yoldaşlarım kimi daima öz üzərimdə çalışır, əlimdən gələni əsirgəmirəm. Doğma Vətənimizin müdafiəsinə hər zaman hazırıq".

Növbəti otaqda isə əsgərlər saç düzümünü səliqəyə salırdılar. Otaqda bərbərə aid hər bir ləvazimat yerləşdirilib. "Hərbi xidmətdə öyrəndiyimiz müsbət keyfiyyətlərdən biri də intizamlı, səliqəli olmaqdır. Yaradılan şərait imkan verir ki, üst-başımızı daim səliqəli saxlayaq. Həftədə bir dəfə saç düzümümüzü qaydaya salır, hər günün sonunda paltarlarımızı ütüləyir və bununla da sıra baxışına hazırlaşırıq. Keçirilən məşğələlərdə fəal iştirak edir, təcrübəli zabitlərimizdən hərbi bilikləri öyrənirik. Qısa müddətdə hərbin sirlərinə yiyələnmişik. Bizə təhkim olunan silahlardan sərbəst atəş açmağı, bir çox hərbi taktika və qaydaları öyrənmişik. Dövlətimizin, ordumuzun adına layiqli əsgər olmaq üçün var qüvvəmizlə çalışırıq. Bütün əsgər yoldaşlarım kimi, mən də yaradılan şəraitdən və qayğıdan razıyam", - əsgər Nail Təvəkkülzadə dedi.

Hərbi hissələrə hər səfərimizdə dövlət başçısının, ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbçilərin məişət şəraitinin, şəxsi heyətin sosial təminatının yüksək səviyyəyə çatdırıldığının şahidi oluruq. Yaradılan belə yüksək şərait Vətənin müdafiəsində dayanan əsgərlərə sağlam mənəvi-psixoloji ruh aşılayaraq onların qələbə əzmini daha da artırır.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**



# Xəbərlər: hadisələr, faktlar

## Zelenski müharibə zamanı həlak olan və yaralanan hərbçilərin sayını açıqlayıb



Ukrayna Silahlı Qüvvələrinin tammiqyaslı müharibə zamanı qeydə alınan itkiləri bir neçə onminlərlə, yaralılar isə bir neçə yüz mindir. Eyni zamanda, Ukrayna Rusiyanın işğal etdiyi ərazilərdə nə qədər dinc sakini öldürdüyünü bilmir.

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski "NBC News"a müsahibəsində məlumat verib.

"Biz itkilər qeydə almışıq: 46 min hərbçi ölüb. Onminlərlə hərbçi döyüşdə və ya əsirlikdə itkin düşüb. Bunu dəqiq bilmək mümkün deyil, çünki itkin düşənlər ölmüş və ya əsirlikdə ola bilər və bunlar onminlərlədir, bu doğrudur", - deyə Zelenski bildirib.

Bundan əlavə, 350 min əsgər yaralanıb, Rusiya 19.500 uşağı deportasiya edib. Eyni zamanda, Ukrayna işğal zamanı nə qədər insanın öldüyünü bilmir, çünki yaşayış məntəqələri işğal edildikdən sonra yarım min cəsədin olduğu qəbirlər tapılıb.

"Bizim bildiyimiz budur. İşğal olunmuş ərazilərdə neçə minlərlə dinc sakinin öldüyü məlum deyil. Rusiya şəhərlərə hücum edib, onları mühasirəyə alaraq onları dağıdarkən, ölənlərin sayını bilmirik. Təəssüf ki, azad edilmiş şəhərlərdə biz kütləvi məzarlıqlar tapdıq. Onlar kütləvi atəşlər və işgəncələr həyata keçirib", - deyə Zelenski qeyd edib.

## Almaniya ordusunun döyüş hazırlığı aşağı düşüb



Almaniya ordusunun döyüş hazırlığının səviyyəsi 2022-ci illə müqayisədə aşağıdır.

Bu barədə "Reuters" agentliyinə hərbi məmurlar, qanunvericilər və müdafiə sahəsi üzrə ekspertlər məlumat veriblər.

Onların sözlərinə görə, yeni hökumət müdafiə xərclərini artırsa belə, xüsusən də hava hücumundan müdafiə sistemləri, artilleriya və əsgər çatışmazlığı səbəbindən uzun müddət geridə qalmış olacaq.

Almaniya Silahlı Qüvvələri Assosiasiyasının rəhbəri polkovnik Andre Vüstner qeyd edib ki, Ukrayna münaqişəsinə qədər Almaniyanın döyüş hazırlıq səviyyəsi 65 faiz təşkil edən 8 briqadası olub. Ukraynaya silah, sursat və avadanlıqların göndərilməsi, həmçinin ölkənin öz təlimlərini sürətləndirməsi mövcud texnikaya təsirini göstərib.

"Ümumilikdə, bu o deməkdir ki, Almaniyanın Quru Qoşunlarının hazırlıq səviyyəsi 50 faizə qədər düşüb", - deyə o söyləyib.

Kansler Olaf Şoltsun Almaniyanın "köhnəlmiş" Silahlı Qüvvələrində əsaslı təmir, 2025 və 2027-ci illərdə 40 min hərbçidən ibarət iki diviziyanın NATO alyansına təqdim ediləcəyi ilə bağlı vədlərinə baxmayaraq, ölkə ciddi manevələrlə üzləşib. "Reuters" yazır ki, ondan çox hərbi məmur, qanunverici və müdafiə sahəsi üzrə ekspertlər bu barədə məlumat verib.

Almaniyanın bütün əsas partiyaları hərbi xərclərin NATO-nun tələb etdiyi ÜDM-in minimum 2 faizi səviyyəsində saxlanmasının tərəfdarı olduqlarını bildiriblər. Lakin ABŞ Prezidenti Donald Tramp tələb edir ki, NATO ölkələri hərbi xərclərini iki dəfədən çox artıraraq, ÜDM-in 5 faizi səviyyəsinə çatdırsın. NATO isə hərbi xərcləri təxminən 3 faizə yüksəltməyin mümkünlüyünü nəzərdən keçirir.

Almaniyanın müdafiə naziri Boris Pistoriusun sözlərinə görə, hədəf göstəricisini 2 faizə çatdırmaq üçün ölkənin ildə 30 milyard avroya ehtiyacı olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin komandası məğlubiyyətsizlik seriyasını davam etdirir





Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında keçirilən III minifutbol turnirində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin komandası məğlubiyyətsizlik seriyasını davam etdirir.

Turnirin növbəti görüşündə Azərbaycan Beynəlxalq Bankının (ABB) komandası ilə qarşılaşan komandamız rəqibini 3-0 hesabı ilə məğlub edərək inamlı qələbə qazanıb.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Minifutbol Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə "C" qrupunda mübarizə aparan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin komandası xallarının sayını 22-ə çatdırıb.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan cüdoçuları Bakıdakı “Böyük Dəbilqə” turnirini 5 medalla başa vurublar



Azərbaycan cüdoçuları Bakıda keçirilən "Böyük Dəbilqə" turnirini 5 medalla başa vurublar.

Milli Gimnastika Arenasında təşkil edilən yarışın son günündə mübarizəyə qoşulan milli komandamızın 9 üzvündən yalnız ikisi bürünc mükafat uğrunda qüvvəsini sınayıb.

Əjdər Bağırov (100 kiloqram) Beynəlxalq Cüdo Federasiyasının bayrağı altında çıxış edən Niyaz Bilalova, Kənan Nəsibov (+100 kiloqram) isə yaponiyalı Kanta Nakanoya uduzaraq 5-ci yeri tutublar.

Qeyd edək ki, Azərbaycan cüdoçularından Zelim Tçkayev (81 kiloqram) qızıl, Rəşid Məmmədəliyev (73 kiloqram) gümüş, Vüsal Qələndərzadə (73 kiloqram), Əhməd Yusifov (60 kiloqram) və Elşən Əsədov (66 kiloqram) bürünc mükafata sahib çıxıblar.

## Azərbaycanın ən güclü şahmatçıları müəyyənləşib



Kişi və qadın şahmatçılar arasında Azərbaycan çempionatına yekun vurulub.

Fevralın 15-də keçirilmiş tay-brek görüşlərindən sonra mükafatçıların adına aydınlıq gəlib.

Kişilərin yarışında Şəhriyar Məmmədyarovu məğlub edən Rauf Məmmədov Azərbaycan çempionu olub. Bürünc medala Misrətdin İskəndərov sahib çıxıb.

Qadınların mübarizəsində isə Günay Məmmədzadə finalda Gövhər Beydullayevaya qalib gəlib. Gülnar Məmmədova 3-cü yeri tutub.

## Azərbaycanın stolüstü tennisçiləri Türkiyədəki turniri 3 medalla başa vurublar



Türkiyənin Nevşehir şəhərində təşkil olunan "WTT Youth Contender" turnirinə yekun vurulub.

Yarışın son günü - fevralın 15-də U-15 kateqoriyasının şəxsi turnirində mübarizə aparan Onur Quluzadə Azərbaycan millisinin aktivinə daha bir medal yazdırıb.

Yarımfinalda Türkiyə təmsilçisi Kenan Kahramanla qarşılaşan Onur gərgin keçən görüşdə 2-3 hesabı ilə uduzaraq bürünc mükafatla kifayətlənib. Xatırladaq ki, Onur Quluzadə turnirin U-17 kateqoriyasında da fəxri kürsünün üçüncü pilləsinə qalxmışdı. Qarışıq-qoşa yarışında isə Onur Quluzadə ilə Yağmur Məmmədli U-15 kateqoriyasında baş mükafata layiq görülmüşdü.

## Azərbaycan atleti Balkan çempionatının qalibi olub



Azərbaycan atleti Rüstəm Məmmədov Serbiyanın paytaxtı Belqrad şəhərində qapalı məkanda keçirilən Balkan çempionatında qızıl medal qazanıb.

Üç təkanla tullanma növündə mübarizə aparan idmançı 16,3 metr məsafə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

O, 9 ölkədən 12 idmançının mübarizə apardığı yarışda bütün rəqiblərini qabaqlayıb.

Sonuncu dəfə Azərbaycan idmançılarından Nazim Babayev 2020-ci ildə qapalı məkanda Balkan çempionatının qalibi olmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

# Maraq dünyamız

## Planetimizin qədim tikilisi - Nen-of-Xauar daş evi



Nen-of-Xauar daş evinin fraqmentləri günümüzə qədər gəlib çatıb. E.ə. 3700-3500-cü illərdə inşa edilən ən qədim, Neolit dövrünə aid tikilidir. Britaniyada “sağ qalan” ən qədim daş bina hesab olunur. Şotlandiyanın şimalında Orkney arxipelaqındakı Papa Vestrey adasında yerləşir.

1930-cu illərdə kəşf edilən qədim tikili "malikanə" adlanan iki daş evdən ibarətdir. Arxeoloji qazıntılar göstərir ki, bu tikililər daha qədim məskənin qalıqları üzərində tikilib və bu ərazi əkinçilik mərkəzi olub. Mütəxəssislər bildirirlər ki, strukturun böyük hissəsi əsas ev, kiçik hissəsi isə emalatxana və ya anbar kimi fəaliyyət göstərib. Arxeoloqlar daha kiçik evin üç kiçik hissəyə bölündüyünə də inanırlar. Burada pəncərə yoxdur. Ehtimal olunur ki, evlər ocaq vasitəsilə işıqlandırılıb və tavandakı dəlik tüstü bacası olub.

İki evin ərazisi qədim insan fəaliyyətinin qalıqları ilə əhatə olunub. Tapılan əşyalar göstərir ki, sakinlər burada öküz, qoyun, donuz yetişdirib, arpa və buğda becəriblər.

Tikililərin içindəki öz orijinal formasında qorunub saxlanılan daş "mebellər" (ocaq yerləri, arakəsmələr, çarpayılar və saxlama rəfləri) indiyədək əsl heyrət təəssüratı yaradır.

**"Azərbaycan Ordusu"**



Quliyev Muxtar Yusif oğluna verilmiş MV № 014724 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bağırov Elbəyi Qadir oğluna verilmiş MV № 018244 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 38
Nüsxə 3663